# İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciəti

(Əvvəli 1-ci səhifədə).

Əlbəttə ki, bütün bu işləri görmək üçün iqtisadiyyatımız inkişaf etməlidir. Burada da yaxşı nəticələr var. Bu il ümumi daxili məhsul 4 faizdən çox, qeyri-neft sektorunda ümumi daxili məhsul 6 faizdən çox, qeyri-neft sənaye sahəsində isə artım 7 faizdən çox olub. Biz öz valyuta ehtiyatlarımızı artırmışıq və hazırda 72 milyard dollardan çox valyuta ehtiyatlarımız var. Eyni zamanda, xarici borcumuzu da azaltmışıq və bu gün Azərbaycanın xarici borcu cəmi 5,2 milyard dollardır. Yəni, başqa sözlə desək, bizim valyuta ehtiyatlarımız xarici borcumuzu 14 dəfə üstələyir. İndi əgər bu rəqəmlərə yaxın olan rəqəm hər hansı bir inkişaf etmiş ölkədə varsa, onu mənə göstərsinlər. Bütün bu işləri görməklə yanaşı, Qarabağın və Şərqi Zəngəzurun bərpası, hərbi gücümüzün artırılması, sosial layihələrin icra edilməsi ilə yanaşı, biz bax, bu önəmli makroiqtisadi rəqəmləri əldə etmişik. Həm borcumuzu azaltmışıq, həm ehtiyatlarımızı artırmışıq və bu, imkan verir ki, biz geniş sosial proqramlar icra edək. Deyə bilərəm ki, 2019-cu ildən bu yana dörd sosial paket layihəsi, proqramı icra edilmişdir. Gələn il beşinci paket icra ediləcək. Bu layihələrə ayrılan və ayrılacaq vəsait 7,5 milyard manat olacaq.

Sosial sahəyə gəldikdə, onu da bildirməliyəm ki, 2025-ci ildən başlayaraq minimum əməkhaqqı 345 manatdan 400 manata, minimum pensiya isə 280 manatdan 320 manata qaldırılacaq. Artım təxminən 14-15 faizdir. Yəni, yenə də bütün bu böyük investisiya, sərmayə qoyuluşu layihələrinin icrasına baxmayaraq, sosial sahə, insanların güzəranı, insanların sosial müdafiəsi daim diqqət mərkəzində olacaqdır.

Bu il Azərbaycanda COP29 iqlim konfransı keçirildi. Deyə bilərəm ki, bu, bizim müstəqillik tariximizdə ən böyük beynəlxalq tədbirdir və hesab edirəm ki, dünya miqyasında ən böyük və mötəbər beynəlxalq konfransdır. Cəmi on bir ay ərzində biz bu böyük tədbiri uğurla keçirdik. Qeydiyyatdan keçmiş 76 min iştirakçı öz gözləri ilə Azərbaycanın potensialını bir daha gördü. 197 ölkə, 80 dövlət və hökumət başçısı və vitse-prezident iştirak edib. Bu, bir daha göstərir ki, COP29-u Azərbaycana qarşı istifadə etmək istəyən bəzi Qərb ölkələrinin, onların nəzarətində olan dırnaqarası qeyri-hökumət təşkilatlarının və saxta media orqanlarının - onların bütün səyləri əbəs oldu on bir ay ərzində. Bu, hələ də davam edir. COP-dan sonra da artıq iki aya yaxındır davam edir, bizə qarşı şər, böhtan, yalan, iftira, uydurma kampaniyası aparılır - Azərbaycanı qaralamaq, Azərbaycanın imicinə zərbə vurmaq. Onun arxasında duran ölkələrin adlarını mən heç çəkmək də istəmirəm. Azərbaycan xalqı o ölkələri yaxşı tanıyır. Qeyri-hökumət təşkilatları hansı mənbədən vəsait alır, hansı paytaxtdan göstəriş alır, onu da Azərbaycan xalqı yaxşı bilir. Ümid edirəm ki, gələn ilin yanvarın sonlarından başlayaraq artıq Azərbaycana qarşı bu diskriminasiya və ayrı-seçkilik, şər, böhtan siyasətinə son qoyulacaq. Hər halda, ümidlər böyükdür.

Bu il Azərbaycan xalqı bir daha mənə böyük etimad göstərmişdir. Prezident seçkilərində mənə göstərilən dəstək məni daha da ruhlandırır, daha da gücləndirir. Daha da çox məni əmin edir ki, biz düzgün yolla irəliyə gedirik və bundan sonra da mən bu yüksək etimadı doğruldacağam. Hesab edirəm ki, Azərbaycan xalqında bu məsələ ilə bağlı hər hansı bir şübhə yoxdur. Azərbaycan 21 ildir inamla, uğurla, ləyaqətlə inkişaf edir. Bu illər ərzində çətinliklər də olub, sınaq məqamları da olub, müharibələr olub, bizə qarşı əsassız ittihamlar olub. Amma heç biri, heç biri bizi yolumuzdan döndərə bilmədi. Biz ərazi bütövlüyümüzü də bərpa etdik, dünya güclərinin istəklərinə rəğmən, dövlət suverenliyimizi də bərpa etdik, yenə də böyük dövlətlərin iradəsinə zidd olaraq. Ölkəmizi də inamla idarə edirik. Bizim ayağımıza dolaşmaq istəyənlər isə növbəti dəfə iflasa uğrayacaq.

Əziz həmvətənlər, bu gün Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Bütün dünyada yaşayan azərbaycanlıları bu bayram münasibətilə ürəkdən təbrik edirəm. Əziz xalqıma cansağlığı, firavanlıq, xoşbəxtlik, səadət arzulayıram.

Bayramınız mübarək olsun!

# Mən azərbaycanlıyam

Hər bir xalqın milli mənsubiyyəti onunçün doğmadır, əzizdir! Hər bir millətin keçmişi, indisi, tarixi və gələcəyi var. İnsanlar milli mənsubiyyətləri, milli dəyərləri, görkəmli şəxsiyyətləri, keçdikləri yolla fəxr etməyi bacarmalıdırlar.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının hər bir nümayəndəsinə örnək olacaq müdrik deyimi bugünkü və gələcək nəsillər üçün həm də müqəddəs tövsiyədir: "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam".

Uzun illər boyu bizi ateist kimi tərbiyələndirmişlər, bu mövzuda dərsliklər yazaraq tədris etdilər, dini azadlıq elan etsələr də, məscidə gedənləri, ibadət edənləri sıxışdırdılar, qınadılar, müxtəlif formada cəzalandırdılar. Amma Allahımızdan üz çevirmədik, onu ürəyimizin dərinliklərində qoruyub saxladıq. Neftimizi daşıyıb apararaq bizə çirklənmiş torpaq, korlanmış ekologiya qoydular.

1941-1945-ci illərdə cəbhənin neft və neft məhsullarına olan ehtiyacının 80 faizini ödəyən

Azərbaycanın haqqını tapdaladılar, Bakıya quru Qəhrəman şəhər adını belə vermədilər. Bizi qardaş Türkiyədən ayrı saldılar, Bakıya onu düşmən dövlət kimi təqdim etdilər. Qarabağa uzanan murdar əllərin qarşısını almaq üçün meydana çıxaraq bu ədalətsizliyə etirazımızı bildirəndə isə tərkibi ermənilərlə möhkəmləndirilmiş "Qızıl ordu"nu Bakıya göndərərək hamımızı qanına qəltan etdilər! Nə qorxduq, nə də geri çəkildik! Həm də anladıq ki, bizi bu çıxılmaz vəziyyətdən yalnız Ulu Öndərimiz Heydər Əliyev qurtara bilər.

İkinci dəfə hakimiyyətə gələn ulu öndər Azərbaycanda möhkəm və dönməz sabitlik yaratdı! Heydər Əliyev siyasi kursuna sədaqətlə xidmət edən cənab İlham Əliyevin prezident seçilməsi Azərbaycanın yeni yüksəlişinin başlanğıcı oldu.

O, bir-birinin ardınca transmilli layihələrini - BTC, BTƏ, BTQ və "Cənub qaz dəhlizi"ni reallaşdırdı.




Prezident İlham Əliyevin imzaladığı regionların inkişafına dair dörd dövlət proqramının gerçəkləşdirilməsi sayəsində ölkə büsbütün dəyişdi, müasirləşdi, yeniləndi.Yol infrastrukturu təzələndi, sahibkarlıq fəaliyyəti, xüsusən aqrar sektor yeni inkişaf yoluna çıxdı, ölkədə qazlaşdırma 96 faizə çatdı, qaçqınlar və məcburi köçkünlər üçün 116 şəhərcik və yaşayış kompleksi salınaraq onların həyat şəraiti xeyli yaxşılaşdırıldı, işsizliyin və yoxsulluğun səviyyəsi 4-5 faizədək azaldıldı.

Cənab İlham Əliyevin uzaqgörənliyi və məqsədyönlü fəaliyyəti sayəsində ölkənin siyasi nüfuzu əhəmiyyətli dərəcədə artdı, beynəlxalq mövqeləri möhkəmləndi. Azərbaycan BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi, bir il ərzində onun iclaslarına sədrlik etdi.

Yaxınlarda öz işini uğurla başa vuran COP29-un yüksək səviyyədə təşkili isə Azərbaycanın beynəlxalq nüfuzunun pik nöqtəsi oldu, imkan, bacarıq və qabiliyyətlərinin dünya tərəfindən təsdiqinə çevrildi!

Tarixinin ən qüdrətli dövlətini yaradan Azərbaycan ikiəsrlik tarixi olan Qarabağ münaqişəsini də öz gücünə güvənməklə "dəmir yumruğ"u sayəsində həll etdi!

Dünya azərbaycanlıları müstəqil Azərbaycanın bu qələbəsini coşqun sevinc və fərəhlə qarşıladılar!

Bu gün Ermənistan sülh müqaviləsini imzalamaqdan yayınır, bu gün ABŞ, Fransa, Avropa İttifaqı, Hindistan, Yunanıstan Ermənistanı silahlandırmaqla, maliyyə dəstəyi verməklə, onu revanşizmə hazırlayır.

Azərbaycan sülhpərvər, multikultural, güclü və müstəqil dövlətdir! Dosta dost, düşmənə düşmən, dünya azərbaycanlılarına isə arxa və köməkdir! Dünyanın harasında yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı üçün qürur və fəxr ünvanıdır!

Azərbaycanı sevən, onun uğurları ilə fəxr edən hər bir kəsi Azərbaycan öz əzizi və övladı hesab edir.

Torpaq, uğrunda ölən varsa, Vətəndir - deyiblər! Hər iki Qarabağ müharibəsində Azərbaycan xalqının mərd övladları əldə silah döyüşərək bunu canları və qanları ilə sübut etdilər! Azərbaycanı özlərinə doğma Vətən sayanların hamısı! İndi isə hamı əl-ələ verərək azadlığa çıxmış Vətənin yaralarını sağaltmaqla məşğuldur!

Həm də təkcə bu torpaqda yaşayanlar deyil, dünyanın hər yerində yaşayan, amma Azərbaycanı özlərinə vətən sayanların hamısı! Bu yerdə Vətən Müharibəsi Qəhrəmanı Ramazan Hudulovun "Azərbaycan" qəzetinə müsahibəsindəki bir məqama diqqət çəkirik: "Mən avar xalqının nümayəndəsiyəm. Mən Azərbaycan vətəndaşıyam. Bizim bir adımız var, biz azərbaycanlıyıq! Azərbaycanlı olmağımızla hər birimiz həmişə fəxr etmişik, bu gün də fəxr edirik".

Budur bizi güclü edən!

Qalib vətənimizlə qürur duyun, dünya azərbaycanlıları!

Bayramınız mübarək!

**"Qəbələ"**